2023.- 19 may.- S.8.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir




# 6 ay ömür sürən jurnal!

## 116 yaşlı "Bəhlul"...

*Yeganə BAYRAMOVA*

Bu gün Azərbaycan satirik jurnalistikasının ən yaxşı nümunələrindən sayılan "Bəhlul" jurnalının 116 yaşı tamam olur. Adını Şərqin folklor qəhrəmanı Bəhlul Danəndədən götürən jurnal 1907-ci ildə mayın 19-da nəşrə başlayıb. Cəmi 6 ay ömür sürən və 9 nömrəsi işıq üzü görən bu jurnalın əsas hədəfi Çar Rusiyasının özbaşınalıqlarını, müsəlman əhalinin çətin həyat şəraitini işıqlandırmaq idi.

Həftəlik satirik jurnal Ələsgər Əliyevin redaktorluğu, Seyid Hüseynin əməkdaşlığı ilə "Kaspi" mətbəəsində nəşr edilirdi. Jurnalın səhifələrində zəhmətkeş kütlənin 1905-1907-ci illərdəki inqilabi mübarizəsi geniş işıqlandırılırdı. Dövrün ziyalıları, həmçinin "Dərdmənd", "Bəhlul", "İpləmə", "Düdük" imzaları ilə yazdıqları felyeton və məqalələrdə Çarizmin müsəlman əhaliyə qarşı ayrı-seçkilik siyasətini qınayır, xalqın savadlanmasına çalışırdılar.

"Bəhlul" forma etibarı ilə "Molla Nəsrəddin"ə bənzəyirdi. Jurnalda şəkillər, felyetonlar, satirik şeir, teleqraf xəbərləri, lüğət, tapmaca və başqa yazılar dərc olunurdu. Jurnalın nömrələrində "Molla Nəsrəddin"ə dair maraqlı materiallar verilmişdir. Hər iki jurnalın əməkdaşları arasında sıx əlaqə də yaranmışdı.

"Bəhlul"un nəşri də dəfələrlə dayandırılmışdı. Lakin irticanın təqibi "Bəhlul"u öz yolundan döndərə bilmirdi. Onun "Camaata" adlı müraciətində "Molla Nəsrəddin"in bütün islam aləmində ən qabaqcıl ideyaları təbliğ etdiyi və məhz bu səbəbdən mürtəce qüvvələrin onu dağıtmaq, məhv etmək istədiklərini bildirirdi. Jurnal "Oyanın! Oyanın!" - deyə xalqa xitabında "Molla Nəsrəddini qorumağa çağırırdı.

1907-ci ilin noyabr ayınadək cəmi 9 nömrəsi nəşr edilən jurnal "zərərli məsləkinə görə" nəşrini dayandırdı. "Kəlmiyyət", "Şeypur", "Zənbur", "Rəhbər" satirik jurnalları kimi "Bəhlul" da az yaşadı... Lakin bu jurnalın qısa ömrü olsa da, Azərbaycan xalqının millət kimi formalaşmasında mühüm rol oynadı, milli özünüdərk prosesini hədəf tutaraq işıqlandırdı.

Xatırladaq ki, 2020-ci ildə Azərbaycan mətbuatının 145 illiyi münasibətilə "Bəhlul" jurnalı kitab formatında çap olunub. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin elmi işçisi Dilbər Rzayeva tərəfindən ilk dəfə transfonelitersiya edilib. 146 səhifədən ibarət kitab "Bəhlul" satirik jurnalının ərəb qrafikalı əlifbadan transfonelitersiyasıdır.